# Polşa ilə diplomatik münasibətlərin 30 illiyi yüksək əlaqələr zəminində qeyd olunur

***Dövlətimizin başçısı Azərbaycan və Polşa arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar polşalı həmkarı Andjey Dudaya ünvanladığı təbrikdə əlaqələrimizin inkişaf dinamikasını yüksək dəyərləndirib: “Biz Azərbaycan ilə Polşa arasında əlaqələrə böyük əhəmiyyət veririk. Yüksək səviyyəli qarşılıqlı səfərlər, siyasi, iqtisadi-ticari, mədəni və digər sahələrdə genişlənən əməkdaşlıq diplomatik əlaqələrimizin otuz illik tarixini səciyyələndirən cəhətlərdir. Əlamətdar haldır ki, biz bu il həm də münasibətlərimizin xarakterini bariz şəkildə əks etdirən “Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında strateji tərəfdaşlıq və iqtisadi əməkdaşlığa dair yol xəritəsi haqqında Birgə Bəyannamə”nin imzalanmasının beş illiyini qeyd edirik”.***

Otuz il əvvəl respublikamızı dövlət olaraq tanıyan Polşa hökuməti rəsmən dövlətlərarası münasibətlərin qurulmasına hazır olduğunu bildirmişdir. Tezliklə Polşanın XİN rəhbəri azərbaycanlı həmkarına müvafiq nota göndərmişdir. 1992-ci il fevralın 21-də müvafiq cavabla birlikdə diplomatik əlaqələrin qurulması haqqında saziş qüvvəyə minmişdir.

Tarixə nəzər salsaq, Azərbaycan-Polşa əlaqələrinin kökü daha əvvəllərə, hətta 1472-ci ilə gedib çıxır. Azərbaycanlı diplomat, ölkəmizin Polşadakı sabiq səfiri Həsən Həsənovun yazdığına görə, ilk dəfə olaraq həmin tarixdə Azərbaycan dövləti olan Ağqoyunlular sülaləsi və Polşanın Yaqellon sülaləsi arasında diplomatik missiya mübadiləsi baş verib. O zaman Ağqoyunlular tərəfindən Polşaya ilk diplomatik missiya göndərilib. Sonrakı dövrlərdə də Azərbaycan-Polşa münasibətlərində inkişaf meyli müşahidə olunub. XIX əsrin əvvəllərində polyak alim B. Andjeykoviç Azərbaycana səfər edib və 1859-cu ildə Polşada Azərbaycan haqqında böyük kitab nəşr etdirib. Başqa polşalılar da Qafqaz haqqında xatirələrində, yol qeydlərində Azərbaycana geniş yer ayırıblar. Polyak A.Xodsko ilk dəfə olaraq azərbaycanlı ozanların dilindən Koroğlu eposunu toplayıb və ingilis dilinə tərcümə edərək Avropada yayıb.

Onu da qeyd edək ki, XIX əsrin əvvəllərində Polşa da Rusiya imperiyasının tərkibinə daxil edilib və oradan əsir götürülmüş üsyançı polyaklar üçün ucqar Azərbaycan sürgün məskəni olub. Onların hesabına burada güclü polyak icması formalaşıb. Bakı qubernatorunun dəftərxanasında 10 nəfər polyak çalışıb. Bakıya gəlmiş polyak ziyalılar şəhərin inkişafında fəal iştirak ediblər.

Azərbaycan neft sənayesinin inkişafında polyak neftçilər P.Pototski və V.Zqlenitski mühüm yer tutublar. V.Zqlenitski Xəzər dənizinin şelfində dünyada ilk dəfə neftçıxarma layihəsini verib, P.Pototski isə bu layihənin həyata keçirilməsində iştirak edib.



Ölkəmizə sürgün olunan şairlər bu gün də Polşa ədəbiyyatında “Qafqaz şairləri” kimi tanınırlar. Azərbaycanın görkəmli maarifçisi Mirzə Cəfər Topçubaşovla dahi Polşa şairi Adam Mitskeviçin güclü dostluq əlaqələri olub. Mitskeviç şərq dillərini Topçubaşovun köməyi ilə öyrənib. Onun “Krım sonetləri”ndən birini məhz azərbaycanlı dostu tərcümə edib və bu sonet Peterburqda dərc olunub. XIX əsrin ortalarında Azərbaycan yazıçıları, mütəfəkkirləri, filosofları – Abbasqulu ağa Bakıxanov, İsmayıl bəy Qutqaşınlı Polşada yaşayıb və polyak həmkarları ilə əməkdaşlıq ediblər. Qutqaşınlının Azərbaycan ədəbiyyatında ilk nəsr nümunəsi sayılan “Rəşid bəy və Səadət xanım” povesti 1835-ci ildə Varşavada işıq üzü görüb. Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Axundov da Polşa ədəbiyyatının təmsilçiləri ilə əməkdaşlıq edib.

Azərbaycan-Polşa mədəni əlaqələrində ən mühüm mərhələlərdən biri dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin “Arşın mal alan” musiqili komediyasının Polşanın müxtəlif şəhərlərinin teatrlarında səhnələşdirilməsidir. Belə ki, 1954-1977-ci illərdə həmin əsər Varşava, Qnezno, Opole, Olştin və Lodz teatrlarında oynanılıb.

İki ölkə arasında əlaqələr XIX əsrin sonu –XX əsrin əvvəlində təkcə iqtisadi və mədəni xarakterli olmayıb, həmçinin siyasi müstəvidə genişlənib. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti (AXC) Polşada səfirlik, Polşa isə bizim ölkədə konsulluq açıb.

Sovet dövründə Azərbaycan və Polşa dövlətləri arasında diplomatik əlaqələr kəsilib. Lakin 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra bu əlaqələrdə yeni mərhələ başlanıb. Bizim müstəqilliyimizi ilk aylarda tanıyan dövlətlərdən biri məhz Polşa olub. 1997-ci ildə Azərbaycan Prezidenti, ulu öndər Heydər Əliyevin Polşaya ilk səfəri baş tutub və bu səfər zamanı iki ölkə arasında bir çox sahələrdə əməkdaşlıqla bağlı hüquqi müqavilələr imzalanıb. Bundan bir il sonra Polşanın Bakıda səfirliyi açılıb. O vaxtadək Azərbaycan üzrə Polşa səfiri Ankara şəhərində akkreditə olunmuşdu. Heydər Əliyevin Polşa xalqının görkəmli övladı İkinci Yan Pavel ilə Vatikan və Bakıda görüşləri olub. Onun Bakıya gəlişi şərəfinə Katolik kilsəsinin tikintisi üçün yer ayrılıb və yeni kilsə hazırda paytaxtımızın görkəmli yerlərindən birində ucalır.

Cənab İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan-Polşa münasibətləri yeni müstəviyə keçərək daha da inkişaf edib. Bu dövrdə də ölkə prezidentlərinin qarşılıqlı səfərləri olub və iki ölkə arasında mühüm sazişlər imzalanıb, 2004-cü ildə Polşada Azərbaycan səfirliyi yaradılıb. Növbəti il martın 30-da Prezident İlham Əliyev Polşa Respublikasına rəsmi səfər edib. Səfər zamanı, iki ölkə arasında hərbi sahədə əməkdaşlıq haqqında sazişlə birlikdə 7 sənəd imzalanıb. 2007-ci il martın 30-da isə Polşanın yeni seçilmiş Prezidenti Lex Kaçinski Azərbaycanda rəsmi səfərdə olub. Səfər zamanı birgə bəyannamə imzalanıb. Polşa Prezidenti 2019-cu il mayın 31-də Azərbaycana rəsmi səfərə gəlib. Təkbətək və geniş tərkibdə görüşlər keçirilib, biznes-forum təşkil olunub və prezidentlər mətbuat üçün bəyanatlarla çıxış ediblər. Həmin gün Bakıda Polşa memarlarının xatirəsinə həsr edilən lövhələrin açılış mərasimi olub. Bakının tarixi məhəlləsində yerləşən küçələrdən birinə “Polşa memarları” adı verilib. Buradakı binaların birində polşalı memarlar – İosif Qoslavski, Kazimir Skureviç, İosif Ploşko və Yevgeni Skibinskinin adları həkk olunan xatirə lövhəsi və onların memarı olduqları bir neçə binanın daşdan yonulmuş şəkilləri vurulub.

Bir həftə öncə Prezident Andjey Duda Prezident İlham Əliyevə zəng edib. Onun 2019-cu ildə Azərbaycana rəsmi səfəri məmnunluqla xatırlanıb. Telefon danışığı zamanı Azərbaycanla Polşa arasında müxtəlif sahələrdə ikitərəfli əlaqələrin inkişafına dair fikir mübadiləsi aparılıb. Polşa Prezidenti ATƏT-in fəaliyyətdə olan sədri kimi Mərkəzi və Şərqi Avropa regionunda təhlükəsizlik məsələlərinə toxunub və ATƏT çərçivəsində atılan addımların gərginliyin azaldılmasına xidmət edəcəyini vurğulayıb.

Polşa ilə münasibətlər bir çox sahələrdə, həmçinin parlamentlərarası əlaqələr vasitəsilə inkişaf etdirilir. Regional ictimai təşkilatlar da dostluq münasibətlərinə sanballı töhfələr verirlər. Xatırlayırıq ki, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi Varşavada geniş qeyd edilib. Beləcə, əlaqələr getdikcə genişlənir. Artıq Bakı ilə Varşava arasında birbaşa təyyarə uçuşları bərpa olunub. Bu günlərdə Polşada Azərbaycan startapları üçün yeni beynəlxalq proqrama başlayıb. Bundan sonra ən yaxşı gənc komandalarımız, startaplar və şirkətlər Varşava, Praqa, Budapeşt və Bratislava kimi beynəlxalq investisiya səhnələrində yer ala biləcəklər. Bütün bunlar Avropa İttifaqının aparıcı tərəfdaşları ilə görüşə biləcək qlobal ambisiyaları olan innovatorlar üçün yeni, ilyarımlıq proqram olan “V4-Azerbaijan Tech Bridge” sayəsində mümkün olacaq. Layihəyə 2023-cü ildə Bakıda keçiriləcək V4-Azərbaycan Startap Sammiti də daxildir.

Cənab İlham Əliyev polşalı həmkarına təbrik məktubunda əməkdaşlığın daha gözəl perspektivləri olacağına inamını ifadə edib: “Hesab edirəm ki, Azərbaycan ilə Polşa arasında qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı perspektivlər var. İqtisadiyyat, nəqliyyat və digər sahələrdəki mövcud potensialdan tam şəkildə istifadə etməklə əməkdaşlığımızı daha da möhkəmləndirə və genişləndirə bilərik”.

İnanırıq ki, tarixin sınağından çıxmış Azərbaycan-Polşa əlaqələri dövlətlərimizin və xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da uğurla inkişaf edəcək və genişlənəcək.

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”***